***Hər gün bayrağımız respublikamızın 27 il işğal altında qalmış yeni bir yaşayış məntəqəsində ucaldılır. Sentyabrın 27-dən indiyədək Azərbaycanın 4 rayonu, 3 qəsəbəsi və 165 yaşayış məntəqəsi, o cümlədən Kəlbəcər və Qubadlı rayonlarının bir hissəsi, Murovdağ yüksəkliyi, Suqovuşan, Xudafərin körpüsü və strateji əhəmiyyətli yüksəkliklər Ermənistan silahlı qüvvələrinin işğalından azad edilib. İndi həmin ərazilər rəşadətli ordumuzun nəzarətindədir. Bu uğurlar Prezident İlham Əliyevin siyasi xadim, qətiyyətli, müzəffər Ali Baş Komandan kimi müdrik fəaliyyətinin bariz nümunəsidir. Bu, həm də Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücünün göstəricisidir. Ölkəmiz artıq nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.***



***Biz hazırda Ermənistan tərəfindən, bu zorakılığa və dinc əhaliyə qarşı hərbi cinayətlərin törədilməsinə görə məsul olan şəxsdən, şəxsən baş nazirdən tələb edirik ki, o, Ermənistanın işğal olunmuş əraziləri boşaldacağını desin. Bundan sonra, əlbəttə ki, münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçəcəkdir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan Ordusu milyonlarla soydaşımızın arzusunu reallaşdırır

### *"Münaqişənin hərbi yolla nizamlanması mümkün deyil" deyənlərə...*

Əslində, həm düşmənlərimiz, həm də dünya ictimaiyyəti dörd il əvvəl --2016- cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun gücünü görmüşdü. O zaman cəmi dörd gün davam edən döyüşlərdə uzun illər işğal altında qalan ərazilərimizin 2 min hektardan çoxu, həmçinin Lələtəpə və digər mühüm əhəmiyyətli yüksəkliklər Silahlı Qüvvələrimizin nəzarətinə keçmişdi. Ondan sonra baş verən təxribatlarda Ermənistan ordusuna sarsıdıcı zərbələr vurulan zaman Azərbaycan Ordusunun gücü dünyaya bəlli oldu. Gördülər ki, Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordularından biri olması təsadüfi deyilmiş. İşğalçı ölkənin havadarları artıq hiss etdilər ki, Azərbaycanın Silahlı Qüvvələri işğal altındakı əraziləri azad etmək iqtidarındadır. Bunun qarşısını almaq üçün "Münaqişənin hərbi yolla nizamlanması mümkün deyil" kimi bəhanə gətirib bu yolla Ermənistana himayədarlıq edirdilər. İşğalçı ölkə isə köhnə vərdişindən əl çəkmir, havadarlarına arxayın olaraq, necə deyərlər, özünə gələn kimi, yenidən sərhədboyu ərazilərdə təxribatlar törədir, dinc əhalini qətlə yetirir, yaşayış məntəqələrini yararsız hala salır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində "səy göstərən" beynəlxalq təşkilatlar, bu problemin aradan qaldırılmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədrləri də yenə özlərini, lallığa, korluğa və karlığa qoyurlar. 30 ilə yaxın müddətdə Ermənistanın nazı ilə oynamaları işğalçı ölkəni daha da quduzlaşdırdı. Bu müddət ərzində işğalçı ölkəni öz adı ilə çağırmamaları, onların dinc əhalini, uşaqları qətlə yetirmələrinə, yaşayış məntəqələrini, qəbiristanlıqları, digər obyektləri dağıtmalarına, beynəlxalq hüquq normalarını kobud şəkildə pozmalarına göz yummaları vəziyyəti bu həddə çatdırdı. 30 il ərzində Ermənistanın törətdiyi terror aktlarına, soyqırımına, vəhşiliyinə görə nəinki sanksiya tətbiq olunmadı, hətta ona "dur!" – deyən də tapılmadı.

Sentyabrın 27-də Ermənistanın başladığı genişmiqyaslı təxribat, sonradan bunu müharibə həddinə çatdırması, xalqımızın səbr kasasını daşdırdı. Həm işğalçı ölkəyə, həm dünya ictimaiyyətinə, həm də "Münaqişənin hərbi yolla nizamlanması mümkün deyil" – deyənlərə bəlli oldu ki, münaqişənin hərbi yolla nizamlanması mümkün imiş. Vəziyyətin bu həddə çatmasına isə Ermənistanın beynəlxalq hüquq normalarına saymazlığı imkan yaratdı.

### *Münaqişənin "diplomatik həlli yoxdur" bəyanatına sözardı*

Ermənistanın baş naziri Nikol Paşinyanın münaqişənin diplomatik həllinin olmadığı ilə bağlı bəyanatı bu ölkənin işğalçı siyasətdən əl çəkməməsindən irəli gəlirdi. Bir də ki, Paşinyan həmin bəyanatı verəndə artıq iş işdən keçmişdi. Bundan sonra danışıqlar masasında oturmağa üzü qalmayıb. Artıq döyüş meydanında məğlub olan Paşinyan diplomatiya cəbhəsində də uduzacağını aydın bilirdi. Onun bu bəyanatı suda batanın saman çöpünə əl atmasına bənzəyirdi. Digər tərəfdən təcavüzkar ölkənin hazırkı rəhbərinin işğalçı siyasətindən əl çəkmək istəmədiyini və münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını açıq şəkildə etiraf idi. Baş nazirin bu bəyanatı bir daha təsdiqlədi ki, 27 ildir işğal altında olan əraziləri Azərbaycan Ordusu tərəfindən azad olunması zamanı Ermənistan silahlı qüvvələrinin darmadağın edildiyini görən və atəşkəs üçün iki dəfə ağ bayraq qaldıran Paşinyanın əsl niyyətinin sülh olmadığı qısa zamanda bəlli oldu. O da bəlli oldu ki, bu, erməni hiyləsi idi və əsas məqsəd yeni işğala əl atmaq idi. Bu dəfə arzusu ürəyində qaldı. Paşinyan "konfliktin hazırkı mərhələsində diplomatik həll variantı yoxdur" – deməklə, beynəlxalq aləmə "sübut etmək" istəyirdi ki, guya, Azərbaycanın dayanmaq, Ermənistanın şərtləri ilə razılaşmaq fikri yoxdur. Dövlətimizin başçısı Paşinyanın şərtlə bağlı cavabını vaxtında vermişdi: "...Sən kimsən ki, bizimlə şərt dilində danışırsan. Əgər biz onunla şərt dili ilə danışmaq istəsək, onun siyasi ömrü çox çəkməyəcək..."

"Konfliktin hazırkı mərhələsində diplomatik həll variantı yoxdur" -- deyən Nikol Paşinyan əgər bu düşüncədədirsə, bəs onda niyə ölkəsinin xarici işlər nazirini danışıqlar üçün gah Moskvaya, gah da ABŞ-a göndərirdi? Humanitar atəşkəsə riayət olunması üçün vasitəçi ölkələrin səylərinə hörmətsizlik edən Ermənistan rəhbərliyinin, Moskvada xarici işlər nazirlərinin görüşündən sonra və Vaşinqtonda həyata keçiriləcək məsləhətləşmələr ərəfəsində diplomatik səylərə xələl gətirən bu bəyanatı verməklə Ermənistanın uzun illərdir münaqişənin həlli ilə bağlı sərgilədiyi dağıdıcı mövqeyin növbəti bariz nümunəsidir. Baş nazir öz ölkəsinin və ordusunun potensialına yaxından bələd olduğu halda, niyə vətəndaşlarını qırğına verirdi? O, hələ də dərk edə bilmir ki, münaqişənin davamlı həllinin və bölgədə gərginliyin aradan qaldırılmasının yeganə yolu beynəlxalq hüququn aliliyi, dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı və onlara hörmətin təmin edilməsi ilə mümkündür.

Paşinyanın bu açıqlaması, əslində, Ermənistanın hər şeydən ümidini üzmüş vəziyyətə düşməsindən xəbər verir. O, bu bəyanatı ilə həm də özünü qorumağa çalışır. Çünki əhalini bilərəkdən qırğına göndərən ölkə başçısı bilir ki, Qarabağda döyüşlərdən bir addım geri çəkilmək ona çox çətin anlar yaşadacaq. İlk növbədə, yerli əhaliyə, övladları bu döyüşdə həlak olan minlərlə valideynə cavab verməli olacaq. Buna görə də özünü qorumaq üçün belə bir bəyanat səsləndirib. Azərbaycana qarşı təcavüz siyasəti çərçivəsində bugünədək hər hansı təzyiq hiss etməyən, törətdiyi çoxsaylı cinayət əməllərinə , terror aktlarına görə hüquqi məsuliyyətə cəlb edilməyən Ermənistan rəhbərliyi verdiyi məsuliyyətsiz bəyanatları və törətdiyi əməlləri ilə öz xalqını uçuruma daha da yaxınlaşdırır. Paşinyan belə açıqlamanı verərkən həm də kiməsə güvəndiyini, ona arxa-dayaq olacaqlarına arxayın olub. Ancaq əvəzində...

### *Tərs şillə...*

Paşinyan əvvəlcə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvlərini bu münaqişəyə cəlb etmək istədi. Bəhanəsi də bu oldu ki, KTMT üzvləri bir-birinin ərazi bütövlüyünün qorunması barədə kömək üçün müqavilə imzalayıblar. Rusiya Prezidenti V. Putin Paşinyanın bu yalvarışlarına cavabı "Rossiya 24"ə açıqlamasında verdi. Dedi ki, Ermənistan KTMT-nin üzvüdür, bizim onun qarşısında müəyyən öhdəliklərimiz var. Ancaq hərbi əməliyyatlar Ermənistanın ərazisində getmir".

Rusiya Prezidenti bu günlərdə "Valday" klubu forumunda bir daha bu məsələyə qəti mövqeyini bildirərək dedi: "Azərbaycan ərazilərinin əhəmiyyətli hissəsinin itirilməsi vəziyyəti əbədi davam edə bilməz. Biz problemin həlli üçün ən müxtəlif variantlar təklif etmişik. Hər dəfə son anda nəticə əldə emək olmayıb."

KTMT-dən əli ətəyindən uzun qayıdan Paşinyan kömək üçün ABŞ Prezidenti Donald Trampa yalvardı. D. Trampın cavabı da qısa və konkret oldu: "Minsk qrupu həmsədrlərinin belə bir vəziyyətdə Ermənistana dəstək vermələri mümkün deyil". Donald Trampın Qarabağda hərbi əməliyyatların yenidən başlaması haqda açıqlaması, əslində, Nikol Paşinyana mesaj idi. Yəni, sənə bu nəticə barədə xəbərdarlıq etmişdik, amma dinləmədin, indi bizdən dəstək gözləmə.

Napoli–Bakı Assosiasiyasının beynəlxalq təşkilatlara çağırışı da diqqəti çəkən məqamlardandır. Qurumun prezidenti Cuzeppe Caniglianinin yaydığı bəyanatda deyilir: "Başda İtaliya olmaqla, bütün beynəlxalq ictimaiyyət, hər bir təşkilat Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoymaq üçün müdaxilə etməli, mülki insanlar arasında ölən və yaralananların qarşısını almaq üçün tələb irəli sürməlidir".

NATO da Ermənistanı məyus etdi. Qurumun baş katibi Yens Stoltenberq və Ermənstan prezidenti Armen Sarkisyan Brüsseldə NATO-nun qərargahındakı görüşlərindən sonra keçirdikləri mətbuat konfransında alyansın baş katibi bu barədə məlumat verib. Deyib ki, Ermənistan prezidentinə NATO-nun bu döyüşlərin bir parçası olmadığını xatırladıb. Dinc əhalinin hədəf seçilməsinin qəbuledilməz və yolverilməz olduğunu deyən baş katib belə halların dərhal dayandırılmasının zəruriliyini bildirib. O, münaqişənin sülh yolu həllinin tapılmasının vacibliyini bildirib və Ermənistanla Azərbaycan arasında müzakirələrin davam etdirilməsini tövsiyə edib.

Ümidi Fransaya qalan işğalçı Ermənistanın bu ölkədən də gözləntiləri puça çıxdı. Əvvəlcə Ermənistanın müdafiəsinə qalxan Fransa prezidenti, görünür, rəhbərlik etdiyi ölkənin ATƏT- in Minsk qrupunun həmsədrlərindən biri olduğunu yadına salıb. Erməni



həmkarı ilə danışıqlar aparan Emmanuel Makron vəziyyətdən çıxış yolunun yalnız danışıqlar yolu ilə mümkün olduğunu bildirib. Makron, eyni zamanda, dialoqun davam etdirilməsi üçün sakit bir atmosferə ehtiyac olduğunu da deyib. Bununla da Ermənistanın Avropadakı sonuncu ümid yeri də puç olub. Göründüyü kimi, Nikol Paşinyan böyük ümid bəslədiyi, güvəndiyi arxa-dayaqlarından tərs şillə aldı.

Hazırda Ermənistanda daxili vəziyyət getdikcə gərginləşir. Budəfəki döyüşlərdə də məğlub olduğunu görən Nikol Paşinyan çıxılmaz vəziyyətə düşüb. Bunu Ermənistandakı siyasi meydanın bütün nümayəndələri də yaxşı görür. O, siyasi partiya rəhbərlərini, hətta rəqiblərini də toplayıb, guya, vəziyyətdən çıxış yolunu birgə axtardığını sübut etmək istəyir. Ancaq gecikib. Çünki sələfləri Koçaryanla Sarkisyan ona heç vaxt dəstək verə bilməzlər. Onlar Paşinyanı səhv yolda olmaqda, ordunu pis günə qoymaqda , xalqı güdaza verməkdə ittiham edirlər. Levon Ter-Petrosyanın da Paşinyana dəstək verməyəcəyi açıqlamalarından bəllidir. Vəziyyət getdikcə daha da pisləşir. Azərbaycan Ordusunun Dağlıq Qarabağda tam qələbəsindən sonra Ermənistan daha acınacaqlı hadisələrin şahidi olacağıq.

### *Referendum olmayacaq*

Dövlət başçımızın bugünlərdə Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində "Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə , ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var" – fikrini səsləndirməsi, əslində, dünya ictimaiyyətinə bir mesajdır. Bununla da bir daha bəlli odu ki, əvvəlki status-kvo artıq mövcud deyil və təmas xətti yoxdur. Bundan sonra Ermənistan rəhbərliyinin yeganə çıxış yolu işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz azad etməkdir. Onsuz da milyonlarla soydaşımızın arzusunu həyata keçirən Azərbaycan Ordusu bu işin öhdəsindən şərəflə gəlir.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***